# ANA VƏTƏNİMDƏ UNUDULMAZ BİR GÜN



Kağız üzərində yazılmış, baxanda sadə görünən təqvimlər əslində insanlar üçün çox böyük əhəmiyyət kəsb edirlər. İnsanlar təqvimlərə, bu təqvimlərdə sanki payızda ağacdan düşənyarpaqlar kimi görünən, ömür payımızdan gedən aylara, günlərə baxarkən təqvimin hər vərəqləri bir-birini əvəzlədikcə onların daxilindəki fikirlər, düşüncələr də bir-birini üstələyir. Hər dövlətin, hər millətin əlamətdar günləri olduğu kimi, hər fərdin də əlamətdar, unudulmaz, yaddaşlarda əbədi iz salan günləri olur. Fərdlər bəzən təqvimlərə baxanda gözləri həmin əlamətdar günlərə sataşır, diqqəti həmin anlara cəmləşir və onlar bir daha həmin təqvim günündə baş verən hadisələri yadlarına salaraq, 24 saatlıqvaxtı 24 səhifəlik bir kitab kimi vərəqləyərək o əlamətdar günü bir daha yad edir, xatirələrində canlandırırlar.Bəzi günlər də olur ki, onlar təqvimdə həmin günlərə baxarkən köks ötürürlər, onların gözləri dolur, o günü bir də yadlarına salmaq, yenidən yaşamaq istəmirlər. İnsan o zaman özünü xoşbəxt hesab edə bilər ki, onun yaşadığı zamanda bayramları, xoş günlərinin sayı matəmlərinkindən çoxdur. Xalq arasında xoş günlərə ağ gün, bəd günlərə isə qara gün deyirlər. Yalnız ağ günü qara günündən çox olan bir insan özünüxoşbəxt, bəxtiyar hiss edə bilər. Mən də öz təqvimimə baxanda görürəm ki, mən də bu təqvimdə özüm üçün bir neçə əlamətdar, bəxtiyar günlər yaşamışam. Elə ona görə də mən də özümü bəxtiyar hesab edə bilərəm, bilirəm ki, oxucular da məni qınamayacaqlar və inanıram ki, bu yazımdan sonra onlar mənimbu fikrimə haqq qazandıracaqlar. Çünki bu məqalə-yazım həyatımda yaşadığım ən gözəl, ən xüsusi, fərqli, fəxrli və ən xoşbəxt günlərdən birinin icmalıdır. Həmin gün mənim təqvimimdə ən unudulmaz, yaddaşımdan silinməz olaraq öz yüksəkliyini qoruyacaqdır. Çünki o tarixdə təqvimlər 7 dekabr 2022-ci ili göstərmişdir...

Belə ki, sayca 5-ci kitabım olan, 2020-ci ilin sentyabr ayının 27-də başlamaqla cəmi 44 gün davam edərək qalibiyyətimizlə başa çatan Vətən müharibəmizə, Möhtəşəm Zəfərimizə və Zəfəri qanı, canı bahasına əldə etmiş Şəhidlərimizə, Qazilərimizə həsr etdiyim "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımın Şəhid ailələrinə çatacaq olan nüsxələrini Şəhid ailələrinə çatdırılması məqsədi ilə 2022-ci ilin yanvar ayının 19-da mən Hacıqabul, Saatlı, Sabirabad-,İmişli, Beyləqan, Xocavənd və Ağcabədi rayonlarının icra hakimiyyətlərində oldum və kitabları icra hakimiyyətinin aidiyyəti xidmət sahəsinin əməkdaşlarına təqdim etdim. İndi bu barədə çox yazmağıma ehtiyac yoxdur, çünki oxucularım redaksiya heyətinin üzvü və ictimai müxbiri olduğum "Kredo" qəzetində dərc etdirdiyim "Kəbəyə dönən evlərə doğru" adlanan məqaləmdə bu barədə müfəssəl olaraq oxuya bilərlər. O zaman mənim Ana Vətənim, yurdumun gözəl guşəsi olan Xocavəndə etdiyim səfər mənim üçün unudulmaz olmuşdu. Belə ki, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı cənab Eyvaz Hüseynov məni böyük hərarətlə, qaynar münasibətlə qəbul etdi və dəyərli vaxtını sərf edərək dərslərimə necə hazırlaşmağımla maraqlandı, yaradıcılığımla, yazılarımla bağlı söhbət etdi. O, mənə uğurlar arzulayaraq söz verdi ki, "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabıma mütləq Xocavənd rayonunda təqdimat keçirəcəkdir. Bu söz məni olduqca sevindirdi, sevincimdən az qalırdım ki, qanadlanıb uçam. Mən cənab başçıya dərin minnətdarlığımı bildirdim və onu da söylədim ki, mümkün olacaq bir təqdimatda mən səvə-səvə iştirak edəcəyəm, həmin gün mənim həyatımın ən gözəl günlərindən biri olacaqdır. İndi fikirləşirəm ki, dediklərim qədər var imiş. O gün mütləq gələcək və ən gözəl günlərdən biri olaraq mənim xüsusi həyat təqvimimə yazılacaqmış...



O gün 7 dekabr 2022-ci il tarixinə təsadüf etdi. Qeyd etdiyim kimi Vətən müharibəsi şəhidlərinin işıqlı xatirəsinə həsr etdiyim "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabıma bundan əvvəl Bakı şəhərində Bakı və Bakı ətrafı yerlərdən olan şəhidlərimizin yaxınlarının iştirakı ilə Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında və Bakı şəhəri Səbail rayon Müharibə Veteranları Birliyində, Respublikamızın cənub regionundan olan şəhidlərimizin yaxınlarının iştirakı ilə Lənkəran şəhər Mərkəzi Kitabxanasında, Qərb regionundan olan şəhidlərimizin yaxınlarının iştirakı ilə Şəki şəhər Heydər Əliyev Mərkəzində təntənəli təqdimat mərasimləri keçirilmişdi. Gündən-günə mənə dəyər verən, qədirbilən, müdrik və ulu xalqımızın, onun böyük ziyalılarının əhatəsində olaraq onlardan aldığım stimulla yaradıcılığımı davam etdirərkən dekabr ayının əvvəllərində ana yurdum Xocavənd rayonunun rəhbərliyindən aldığım çağırışla bu günlərin ən sevincli anlarından birini yaşadım. Nəzərinizə çatdırım ki, mən hazırda Kəlbəcər rayonu 20 saylı tam orta məktəbin 9-cu sinif şagirdiyəm və gərgin bir təhsil rejimindəyəm. Buna baxmayaraq təhsilimlə bərabər ədəbiyyatımızdan, yaradıcılığımdan da zövq almaqdayam. Mən özümü bir daha bəxtiyar bir insan hesab edirəm ki, belə müdrik ziyalıların diqqətində, əhatəsindəyəm, onların dəstəyindən, verdikləri stimuldan nəsibimi almışam və almaqdayam. Həmin günlərdə Xocavənd RİH-in rəhbərliyindən eşitdiyim xəbər məni o qədər sevindirdi ki, sevincimi kağız üzərinə köçürməyimə sözlər də, qələm də aciz, gücsüz qalardı. Dekabrın əvvəllərində Xocavənd Rayonunun İcra başçısının müavini çox hörmətli Əfsanə xanım bildirdi ki, 7 dekabr 2022-ci il tarixində Xocavənd rayon Mədəniyyət Evində mənim sayca 5-ci kitabımın təqdimatı keçiriləcəkdir. Onun bu xəbərindən bir az keçmiş kitab təqdimatının afişasını da sosial şəbəkələrdən gördüm. Mənə hər şeydən əziz olan ana torpağımın, rayonumun rəhbərliyinin sosial şəbəkələrdən paylaşdığı şəkli 80-dən çox insan öz sosial şəbəkəsində paylaşmışdı! Onlar da bir-birlərinə bu xəbəri sevinclə çatdıraraq sona qədər tələsirdilər ki, bu xəbərdən bütün Xocavənd əhalisi hali olsun. Bu, məni son dərəcə sevindirirdi. Lakin daxilim mənə deyirdi ki, bundan sonra görəcəklərim və bundan sonra olacaqlar daha diqqətəlayiq olacaq, hələ bu harasıdır ki? Qabaqda o qədər fəxrli, qürurluanlar var ki...

Mən son dərəcə məsuliyyətimlə həmin tədbir üçün hazırlaşdım ki, özümü tez bir zamanda hazırlıqlı bir vəziyyətdə tədbirə çatdırım. Baxmayaraq ki, yavaş-yavaş qış özünü göstərirdi və payız soyuğu hər kəsi titrədirdi, aldığım bu xəbər mənə sonuna qədər bəs etdi ki, sinəmi şaxtaya, soyuğa, sazağa, qara, borana, çovğuna sipər edəm, qalxan edəm və deyildiyi vaxtda, tarixdə qəlbimdə, qanımda daşıdığım Vətən sevgisiylə ana yurduma səfər edəm. Ona görə də bu günlərdə nə istilər nəfəsimi kəsdi, nə soyuqlar nəfəsimi dondurdu. Təbii ki, dərslər və təhsil rejimimin öz yeri var idi. Bununla bərabər ana yurdumun rəhbərliyinin kitabım üçün hazırladığı tədbir məni olduqca maraqlandırırdı. Tədbirdən bir gün qabaq artıq mən hər cəhətdən tədbir üçün hazır idim. Təqvimimə ağappaq bir gün kimi yazılacaq olan o günü, o anları yaşamaq üçün sonuna qədər hazır idim...

Beləliklə, 7 dekabr 2022-ci ildə, saat 11-də Xocavənd rayon Mədəniyyət Evində keçiriləcək tədbir üçün çıxdığımız yola saat 06:30-da Xırdalan şəhərindən başladıq və saat 10:40-da təyinat yerinə çatdıq. Bununla da mən canımdan əziz tutduğum, ürəyimin başında saxladığım doğma torpağıma maneələr, əngəllər bilmədən çatmışdım. Xocavəndi görən kimi sanki özümü cənnətdə hiss etdim. Vətənim Azərbaycanın hər yeri mənim üçün əzizdir, əvəzolunmazdır, bunu dəyərli oxucularım və izləyicilərim çox yaxşı bilir. Lakin nədənsə Xocavənd torpağı mənim üçün hər yerdən müsbət mənada fərqlənirdi. Bəlkə də Xocavəndi mənə sevdirən bu torpaq uğrunda respublikamızın müxtəlif regionundan olan 400-dən çox Azərbaycan igidinin canını qurban verməsi, yüzlərlə igidin bu torpaqda qazi olması, bu torpağa şəhidlərimizin, qazilərimizin qanının axması idi...Bəlkə də ona görə bu torpaq məni bu qədər özünə cəlb edirdi...

Xocavənd şəhərciyində dayandığımız yerdə sağımızda bir məktəb, solumuzda digər dövlət müəssisələri var idi. İnsanlar sanki buludlara çatmağa can ataraq onlara da can vermişdi. Bulud fikirləşirdi, plan cızırdı və vaxt təyin edirdi ki, öz bərəkətini göydən yerə endirsin. Doğma torpağımın bir günü ilə o biri günü heç cür eynilik təşkil etmir, Azərbaycan gündən-günə yeniləndiyi və gücləndiyi kimi Xocavəndim də eyni dərəcədə ucalardan-ucalara qalxırdı. Yolboyu Xocavənddən olan, lakin öz kəndlərinin, öz torpaqlarının üzünü görməmiş, sonda o torpaqların uğrunda canlarını qurban vermiş Vətən övladlarının portretlərini gördüm. Xəyalımda dəfələrlə etdiyim kimi bir daha onların abidəsini canlandırdım və onların qarşısında baş əydim. Bildim ki, bu, son deyil. Onlara bəs edəcək qədər baş əymək, bəs edəcək qədər dua etməklə kifayətlənmək olmaz. Onların xatirəsinə nələr etsək də yenə azdır. Lakin hər kəsin etməli olduğu müqəddəs borc var: Şəhidləri unutmamaq və xatirələrini daim yad etmək! Mən Xocavənddə olduğum müddətdə bir daha fərqinə vardım ki, qəhrəmanlar yetirən ana torpağım Xocavəndim böyüdüb qurban etdiyi övladlarını bir an belə unutmur, onların xatirəsini hər an əziz tutur, yad edir. Xəyalımdan keçirirdim və yəqin edirdim ki, bu torpaq, bu göy, bu səma qulağıma pıçıldayır ki, hələ bu harasıdır? İlk anda



sənin bu gördüklərin azdan da azdır. Mən bunu gələcəkdə cənab başçımızla görüşdüyüm zaman bir daha anlayacaqdım. Bunu düşünmək bəs deyilmiş, həqiqətən də bir dəfə görmək yüz dəfə eşitməkdən yaxşı imiş.

Mənim də hamı kimi səbirsizliklə gözlədiyim, bir an belə dayanmadan yuxumu ərşə çəkdirən möhtəşəm tədbirdən əvvəl ilk olaraq rayon rəhbərliyi və şəhid ailələri ilə birgə Xocavənddən olan Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət etdik, onların məzarına qərənfil qoyduq və ruhları qarşısında baş əydik. Ziyarətdən əvvəl ilk olaraq cənab başçımız çox hörmətli Eyvaz Hüseynov ilə görüşdüm. O, əvvəlcə mənim hal-əhvalımla maraqlandı, məni görməyinə o qədər sevindi ki, sanki bu illərdə bundan artıq sevindiyi olmamışdı. Mən hər dəfəsində etdiyim kimi bu dəfə də diqqətinə görə cənab başçımız Eyvaz müəllimə minnətdarlığımı bildirdim. Eyvaz müəllim Şəhidlərin məzarını ziyarət etdikdən sonra orada çox mənalı və çox dərin bir çıxış etdi.

*(Davamı var)*

Nəsiboğlu, Sevindik.

***9-cu sinif şagirdi, şair-publisist, AJB üzvü***